# JURNALİSTLƏRİN DİQQƏTİNƏ!

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF) İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi tərəfindən dəstəklənən "Azərbaycan: vətəndaşların qlobal iqlim dəyişmələri ilə mübarizəyə necə töhfə verə biləcəyi barədə məlumatlılığın artırılması" adlı layihə həyata keçirir. Layihənin məqsədi dünyada və o cümlədən ölkəmizdə müşahidə edilən iqlim dəyişikliyinin iqtisadi, sosial çağırışları, başlamış enerji keçidi və digər məsələlərlə əlaqədar Azərbaycan vətəndaşlarının və medianın müvafiq problemlərin həllində iştirakının mümkün yolları haqqında məlumatlılığını artırmaqdır. Bu məqsədlə layihə çərçivəsində KİV-lər üçün təlim də nəzərdə tutulur. On jurnalistə (layihənin məhdud büdcəsi təlimə dəvət olunacaq jurnalistlərin sayını artırmağa imkan vermir) xüsusi təlimin keçirilməsi planlaşdırılıb.

Təlimi ölkəmizdə yaxşı tanınan ekspertlər aparacaq. Dünya iqlim dəyişmələrindəki trendlər, bu dəyişmələrin səbəbləri, sağlamlığa, iqtisadiyyata (xüsusilə aqrar sektora) təsirləri, vətəndaşların necə davranmalı olmaları barədə təlim iştirakçılarına biliklər veriləcək.

Layihə çərçivəsində müxtəlif aspektlər üzrə jurnalist araşdırmaları müsabiqəsi də keçiriləcək: 1) ev təsərrüfatlarında elektrik və qaza qənaət; 2) vətəndaşların avtomobil nəqliyyatından istifadəsinin azaldılması; 3) bərpa olunan enerji mənbələrindən istifadə və enerji keçidi. Təlim iştirakçıları bu mövzularda yazılarına görə maliyyə ilə dəstəklənəcək. Ən yaxşı yazı müəllifi mükafatlandırılacaq.

Təlim Oktyabr ayının 7-də, Şənbə günü keçiriləcək (Təlim səhər saat 10.00 – da başlayacaq və 17.00-da tamamlanacaq). İştirak etmək arzusunda olan jurnalistlər Sentyabrın 15-i saat 18.00-a qədər bu ünvana müraciət etməlidirlər: sbiiyf.edf@gmail.com